**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏKTƏBLİLƏRİN MİLLİ ŞÜURUNUN FORMALAŞMASINDA TARİX-DİYARŞÜNASLIQ MUZEYLƏRİNİN ROLU

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Ləman Füzuli qızı Musayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2024**

Dissertasiya işi Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycanın tarixi elmi tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, dosent
**Nərgiz Ağasəlim qızı Əliyeva**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**Qabil Əli oğlu Əliyev**

Tarix elmləri doktoru, dosent
**Sevinc Zakir qızı Abbasova**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Firdovsiyyə Firdovsi qızı Əhmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent
**Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru, dosent
**Fəxrəddin Adil oğlu Cəfərov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Hər bir millətin uğurlu gələcəyi üçün onun yeni nəslinin tərbiyəsində milli mənlik şüurunun, vətənə sevgi hissinin formalaşdırılması vacibdir. Buna görə də hər bir gəncə vətənpərvərlik ideologiyasının əsas təməl prinsipləri kimi, doğma yurdun hər bir qarış torpağına sahib olmaq, daim vətənin xeyrinə fəaliyyət göstərmək, dövlətçilik ənənələrinə sadiq qalmaq, xalqın milli-mənəvi dəyərlərinə sahib çıxmaq, torpaq uğrunda hər an canından belə keçməyə hazır olmaq və s. bu kimi mənəvi dəyərlər aşılanmalıdır. Bu gün müstəqil Azərbaycan dövləti sürətli inkişaf mərhələsində xalqımızın zəngin və qədim tarixi keçmişini təbliğ etməklə onu böyük bir şövqlə gələcək nəslə çatdırır. Bu işdə maddi və mənəvi mədəniyyət abidələrinin məbədi hesab edilən muzeylər gənc nəsildə milli şüurun formalaşmasında mühüm rol oynayır. Böyük maarifləndirici və təhsil potensialına malik muzeylər bu gün müxtəlif mövzularda və sahələrdə çoxlu sayda tədbirlər keçirir. Müasir gəncliyin tərbiyəsində məktəblilərin intellektual, mədəni və estetik səviyyəsinin yüksəldilməsinə kömək edir, milli mədəniyyətin tarixi, mənşəyi, formalaşması və inkişafı ilə tanış olmağa və öyrənməyə böyük təsir göstərir.

Bu gün muzeylər təhsil və mədəniyyətə inteqrasiya prosesi nəticəsində çox vacib bir mədəni-maarif müəssisəyə çevrilib. Muzey pedaqogikası, muzey fəaliyyətinin sahələrindən biri kimi, kompleks təhsil prosesində şəxsiyyətin mənəvi, əxlaqi, vətəndaş və vətənpərvərlik tərbiyəsi praktikasında getdikcə daha çox təsir göstərir. Muzey əşyaları müxtəlif tarixi dövrlərə aid hadisələr və insanlar haqqında məlumat mənbəyi kimi çıxış edir, ziyarətçilərə emosional təsir göstərir, keçmişi xatırlamaqla onlarda mənsubiyyət hissi oyadır, milli şüuru formalaşdırır. Muzeylər vasitəsilə sənədli mənbələrdən məlumat alan şagirdlər təfəkkür qabiliyyətlərini inkişaf etdirir, tədqiqat bacarıqlarını toplayır, tənqidi təfəkkürü formalaşdırır, materialı sistemləşdirməyi və məntiqi düşünməyi öyrənirlər.

Tədqiqata cəlb edilmiş problemlərin həllində tarixi yaddaş xüsusi rol oynayır. Tarixi yaddaşın bir fenomen kimi qeyri-müəyyənliyi bir çox humanitar və sosioloji elmlər tərəfindən təhlil edildiyindən tədqiqat işi bir çox elm sahələrini özündə birləşdirir. Lakin bunun əsas mənbəyi keçmişi canlandırmaqda böyük potensiala malik olan muzey müəssisələridir. Bu gün muzey təkcə tarixin və mədəniyyətin etibarlı, ilkin mənbələrinin saxlanması və nümayiş etdirilməsi yeri deyil. Bura həm də insana məqsədyönlü idrak və emosional təsir göstərən ən mühüm qurum və mədəniyyət mərkəzidir. Milli varlığın əsası, özəyi kimi dərk edilən tarixi yaddaşa arxalanaraq muzey daxilində tarixi reallıqları canlandırmaq, insanı zəngin tarix dünyasına cəlb etmək, keçmişin əlamətdar hadisələrində iştirak hissləri oyandırmaq mümkündür. Tədqiqata cəlb olunmuş mövzu məktəblilərdə milli şüurun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin rolunu əks etdirən ilk elmi metodoloji cəhddir. Problemi araşdırarkən müxtəlif tarixçi-muzeyşünasların muzey hərəkatı ilə bağlı əsərlərinə müraciət edilmişdir. Həmin əsərlərdə XX əsrin 20-ci illərində yaranmağa başlamış diyarşünaslıq işinin əsas aspektləri – elmi və tədris funksiyaları nəzərdən keçirilir.

Azərbaycanda muzeylərin tarixinə və muzeyşünaslığa dair bir sıra nəşrlərin olmasına baxmayaraq, dissertasiyada qeyd olunan mövzu hələ də xüsusi elmi tədqiqat obyektinə çevrilməmişdir, Azərbaycan və xarici tarixçi, filosof, muzeyşünasların əsərlərindən dissertasiyanın müəyyən nəzəri müddəalarını hazırlamaq üçün istifadə edilmişdir.

Geniş spektrli məsələlərə dair əsərlərin təhlilini və yenidən nəzərdən keçirilməsini tələb etdiyindən muzeyə yerli və xarici alimlərin təqdim etdikləri fəlsəfi, sosioloji, psixoloji və pedaqoji yanaşmalar nəzərə alınıb.

Milli şüurun formalaşması bir problem kimi bu gün təkcə təhsil müəssisələrində deyil, həm də ideoloji müəssisə kimi muzeylərin ən aktual problemlərdən biridir. Müasir reallıqda milli şüurun formalaşması zərurətə çevrilib. Hazırda informasiya axını ildən ilə artır, lakin bəzən o, aqressiv xarakter daşıyır və şəxsiyyətin

formalaşması - gəncin əxlaqi, mənəvi, mədəni tərbiyəsinə təsir göstərməklə onları seçim qarşısında qoyaraq, müəyyən məhdudiyyətlər tələb edir. Bu işdə muzeylər bir informasiya mənbəyi kimi cəmiyyətə böyüməkdə olan gəncliyə güclü təsir göstərə bilər. Bütün informasiyanı özündə cəmləşdirməklə muzeylər milli şüur vasitəsi ilə onları vətənpərvər kimi formalaşdırma gücünə malikdir. Bu baxımdan muzeylər şəxsiyyətdə vətəndaş və vətənpərvərlik özünüdərkinin formalaşdırılması məbədinə çevrilməlidir. Bu problemi xalqımızın tarixi və mədəniyyəti haqqında biliklərin yayılması yolu ilə həll etmək olar. Vətənpərvərliyin formalaşmasında təhsil müəssisələrinin də böyük rolu var. Bu gün muzeylərə baş çəkmək bir növ brendə, dəb trendinə çevrilib və bu, ziyarətçilərin mənəviyyatını, intellektini önə çəkir. Sürətlə artan ziyarətçilərin sayı, sənədlərin və eksponatların deposu olmayan muzeylərin işinin keyfiyyətini dəyişir, nəticədə muzeylər daha da maraqlı olur. Muzey bir sıra sosial əhəmiyyətli problemləri həll edən mürəkkəb çoxsəviyyəli sistemdir ki, bunlar arasında idrak işinin inteqrasiyası və asudə vaxtın yaradıcı təşkili birinci yerdədir. Muzeyin səmərəliliyinin əsas göstəricisi ölkənin tarixi inkişafı haqqında vahid anlayış formalaşdıran, onun mədəni-tarixi keçmişinin müasir dövr üçün əhəmiyyətini yüksək qiymətləndirən mədəni-maarif müəssisəsidir. Bu gün dövlətimiz ölkə vətəndaşlarını inkişaf etmiş şəxsiyyət kimi formalaşdırmaqla, onları təşəbbüskar və müstəqil insanlar kimi görmək istəyir. Muzeylərin də məqsədi gənc nəslə fəal vətəndaşlıq, tarixi abidələrə, mədəni ənənələrə hörmət və vətənə məhəbbət hissi aşılamaqdır. Milli şüur, vətənpərvərlik olmadan güclü dövlət yaratmaq, insanlara vətəndaşlıq borcunu hiss etdirmək, qanuna hörmət hissi aşılamaq mümkün deyil. Mədəni irsin mühafizəçisi olan muzeylər cəmiyyətlə bilavasitə qarşılıqlı əlaqədə onun sosial və təhsil institutu funksiyasını yerinə yetirməklə, vətənpərvərlik hislərini sosial-mədəni proseslər vasitəsilə “bir-birinə bağlayan”, keçmişə toxunmağa, genealoji köklərin hərtərəfli öyrənilməsinə imkan verir. Azərbaycanın müasir milli təhsil doktrinası dövlətçiliyimiz üçün tarixi perspektivi təmin edən multikultural cəmiyyətinin formalaşmasını nəzərdə tutur. Belə şəraitdə

vətəndaş cəmiyyətinin formalaşması prosesində dövlət vətənpərvərliyinin ictimai dəyər və sosial mexanizm kimi fəaliyyət göstərməsi ideyası muzeylərin dirçəldilməsi zərurətini ön plana çıxarır. Bu ideyaların əsas göstəricisini vətənpərvərlik, əxlaqi və sosial-mədəni komponentlər təşkil edir. Bu baxımdan muzeyin mövcud tərifləri çox dəyərlidir, lakin hazırda muzey əsasən muzeyşünaslığın bir kateqoriyası kimi qəbul edilir. Lakin sosial, mədəni və maarifləndirmə funksiyaları vasitəsilə cəmiyyətlə bilavasitə bağlı olan muzey məktəblilərin dünyada baş verən hadisələrə münasibətinin formalaşmasında mühüm pedaqoji gücə də malikdir.

Muzey kompleks təhsil müəssisəsidir, onun öyrənilməsi müxtəlif elmlər: fəlsəfə və tarix, sosiologiya və psixologiya, arxeologiya və mədəniyyətşünaslıq, biologiya, pedaqogika, muzeyşünaslıq tərəfindən həyata keçirilir.

XX əsrin birinci rübünün sonlarından başlayaraq Respublikada tarix-diyarşünaslıq muzey şəbəkəsinin formalaşması ilə Vətən tarixinin tədqiqi və təbliği istiqamətində mühüm addımlar atılmışdır.

Tarix-diyarşünaslıq muzey işinin öyrənilməsi onun fəaliyyətində diyarşünaslıq tədqiqatının əsas metodoloji aspektlərinin işıqlandırılmasından ibarətdir. Muzey tarixşünaslığın tədqiqatının metodologiyasını və əsas istiqamətlərini təhlil etmədən qeyd olunan problemlərin əsl mənasını anlamaq mümkün deyil.

Tarix-diyarşünaslıq muzeylərində ekskursiyaların mövzuları müxtəlifdir. Respublikamızın bölgələrinin ən qədim tarixindən çağdaş dövrə qədər keçdiyi yolu əhatə edir. Ümumiyyətlə tədris yönlü ekskursiyalar təlim prosesində verilmiş biliklərin muzeydə olan tarix və mədəniyyət abidələri əsasında genişləndirilməsinə və konkretləşdirilməsinə xidmət edir. Buna görə də tədris ekskursiyaları konkret tədris müəsisəsinin-məktəbin, kollecin, universitetlərin və s. tədris proqramlarını nəzərə almaqla qurulmalıdır. İndiyə qədər xüsusi tədqiqat obyekti olmayan bu problemin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bütün bunlar məktəblilərdə milli şüurun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin rolunun araşdırılmasını aktual edir. Məktəblilərdə milli şüurun formalaşmasında tarix-diyarşünaslıq

muzeylərinin rolu Vətən tarixşünaslığında ilk dəfə olaraq müasir elmi-metodoloji baxımdan araşdırılır, Respublikanın bölgələrində fəaliyyət göstərən bu profilli muzeylərin təcrübəsi ümumiləşdirilir, tarix-diyarşünaslıq muzeylərinin fəaliyyəti ölkəmizin konkret tarixi təcrübəsi kontekstində nəzərdən keçirilir. Eyni zamanda tarix-diyarşünaslıq muzeyləri milli maarifçilik hərəkatının mühüm qollarından biri kimi daha ətraflı tədqiq edilir. İşin aktuallığını şərtləndirən mühüm amillərdən biri də tarix-diyarşünaslıq muzeylərinin özünəməxsus cəhətlərini tədqiqata cəlb olunmasıdır. "Güclü təhsil aləti" kımı böyük əhəmiyyəti olan muzey canlı və fəal bir qurum olmaqla cansız cisimlər üzərində işləyir. Lakin elə işləyir ki, hər bir belə obyekti canlandırır, onu "danışdırmaqla" hər bir tamaşaçıya eksponatın tarixi dəyərini vurğulayaraq üzə çıxardır. Muzeylər nəinki mədəni dəyərləri artırır, həm də gələcək nəsillərin tərəqqisi üçün möhkəm və geniş zəmin yaradır. Bu isə muzeyin milli-ideoloji tərbiyəedici gücünü bütün dövrlərdə aktual saxlayır.

Dünyada baş verən dəyişikliklər müasir cəmiyyətin yeni reallıqlarının dərk edilməsi zərurəti ilə bağlı bir sıra problemlər yaradır. Qloballaşma təkcə inteqrasiyaya deyil, həm də dünyanın regionlaşmasına təkan verdi, buna görə də indi vətəndaş cəmiyyətinin formalaşması problemini həll etməyə çalışmaq, onun regional mədəniyyətlə əlaqəsini, o cümlədən əlavə təhsil müəssisələri vasitəsilə müəyyən etmək üçün çox vacibdir. Eyni zamanda sosial, mədəni və maarifləndirmə funksiyaları vasitəsilə cəmiyyətlə bilavasitə bağlı olan muzey məktəblilərin dünyada baş verən hadisələrə münasibətinin formalaşmasında mühüm pedaqoji yük daşıyır.

İndiyədək orta məktəb şagirdləri arasında vətəndaş mövqeyinin formalaşdırılmasına yanaşma tarix-diyarşünaslıq muzeyinin milli özünüdərk şüurunun formalaşması üçün onun sosial funksiyalar sisteminin öyrənilməsinə lazımi səviyyədə tətbiq edilməmişdir; məktəblilər arasında öz tarixi keçmişi ilə qürur hissinin aşılanması sistemli şəkildə işlədilməmiş və buna uyğun konsepsiya müəyyən edilməmişdir. Elmi-pedaqoji ədəbiyyatda regional muzeylərin sosial-

mədəni rolunun zaman və məkan ölçülərində təhlilinə həsr olunmuş məsələlər kifayət qədər əhatə olunmamışdır.

Eyni zamanda pedaqoji təcrübədə şagirdlərin vətəndaş mövqeyinin formalaşmasına töhfə verən təhsil məkanı kimi muzeyin didaktik potensialından istifadə olunmamışdır. Elmi pedaqoji ədəbiyyatda regional muzeylərin zaman və məkan ölçülərində tərbiyəvi rolunun təhlilinə həsr olunmuş əsərlər praktiki olaraq yoxdur.

Sürətlə dəyişən sosial reallıqda muzey mərkəzləri nəinki yenilənir, həm də qloballaşır. Fikrimizcə, bu, işin real vəziyyətinin öyrənilməsi, kommunikativ muzey proseslərinin inkişaf tendensiyalarının müəyyən edilməsi və vətəndaş cəmiyyətinin formalaşmasında, orta məktəb şagirdlərində milli kimliyin və sosial məsuliyyətinin formalaşması tarix-diyarşünaslıq muzeylərinin bu sahədə tətbiq etdiyi fəaliyyətini üzə çıxardır.

Tarix-diyarşünaslıq muzeylərinin fəaliyyətinin öyrənilməsi müasir Azirbaycan cəmiyyətinin tarixi şüurunun formalaşmasında onların rolunu müəyyən etməyə, ictimai rəyə təsir imkanlarını genişləndirməyə, əhalinin, xüsusən də gənclərin vətənpərvərlik tərbiyəsində əhəmiyyətini artırmağa imkan verəcəkdir.

Mövcud ədəbiyyatların təhlili göstərir ki, məktəblilərdə milli şüurun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin rolu məsələsi bir problem kimi tarix, sosiologiya, psixologiya və pedaqoji elmdə ən vacib və aktual məsələlərdən biridir. Məktəblilərdə milli şüurun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin rolu məsələsi təhsil sistemində vətənpərvərlik tərbiyəsinin müasirləşdirilməsi problemi inqilabdan əvvəlki və sovet məktəbləri tərəfindən toplanmış vətənpərvərlik tərbiyəsinin ən yaxşı ənənələrinin müəyyən edilməsi və qorunub saxlanılması, onun məzmununun yenilənməsi, yeni texnologiyaların layihələndirilməsi, təhsilin səmərəliliyinin artırılması üçün təşkilati və pedaqoji şəraitin əsaslandırılması ilə bağlıdır. Sovet məktəbinin öz dövrü üçün formalaşdırdığı vətənpərvərlik tərbiyəsi təcrübəsinin ən mühüm

nailiyyətləri V.Y.Qarnik,[1] O.V.İonova,[2] N.A.Paşayev,[3] Ə.Məmmədov[4] və başqaları sosialist vətənpərvərliyinin zəruri keyfiyyət və xassələrini tərbiyə etmək üsulları haqqında məlumat vermişlər.

Sovet dövründə muzeylərdə vətənpərvərlik işinin təbliği ilə bağlı Ə.Yunisovun[5] dissertasiya işindən istifadə edilmişdir. Keçən əsrin 80-ci illərində Azərbaycanda muzey quruculuğu və muzeylərin ideoloji müəssisə kimi rolu məsələləri ilk dəfə bu tədqiqat işində öz əksini tapmışdır.

Muzeylərin vətənpərvərlik tərbiyəsinin inkişafında rolu ilə bağlı N.Abbasov,[6] G.Babaxanova[7] və A.Bayramovun[8] əsərləri xüsusi rola malikdir. Muzey pedaqogikasının konsepsiyası, muzeyin mühiti, mu-

---

[1] Гарник, В.Я. Очерк истории музейного строительства в Азербайджанской ССР (1920–1964 гг.) // – Москва: Очерк истории Музейного дела в СССР. «Советская Россия», 1971. – с. 245–291; Гарник, В.Я. Организация и характер краеведения и краеведческих музеев в Азербайджане в 20-х годах // – Баку: Материалы Музея Истории Азербайджана, 1968. № 7, – с.179-187.

[2] Ионова, О.В. Музейное строительство в годы довоенных пятилеток (1928–1941 гг.) // - Москва: Очерки истории музейного дела в СССР. 1963, вып. V, – с. 84–117.

[3] Paşayev N.A. Məktəbdə tarix-diyarşünaslıq işləri / N.A.Paşayev. – Bakı: Azərnəşr, 1967. - 180 s.

[4] Məmmədov Ə. Yaradıcılıq dərnəklərində şagirdlərin estetik tərbiyəsi / Ə.Məmmədov. – Bakı: 1969. – 39 s.

[5] Юнусов, А.Г. История музейного строительства в Азербайджанской ССР (1920–1980 гг.): / Автореферат кандидата исторических наук / – Баку, 1986. – 28 с.

[6] Abbasov, N. Keçmişimizi unutmayaq, bu günümüzü yaşadaq // – Bakı: Mədəni-maarif, – 1991. № 3-4, – s. 11-13.

[7] Babaxanova, G. Şərurda bir muzey var // – Bakı: Mədəni-maarif, – 1984. №1, – s. 44-45.

[8] Bayramov, A. Muzey sərvətlərinin ekspozisiyada mühafizəsi // – Bakı: Mədəni–maarif, – 1986. №4, – s. 31–33; Bayramov, A. Muzeydə xalqlar dostluğu ideyalarının təbliği // – Bakı: Mədəni-maarif, – 1983. №3, – s. 16-19; Bayramov, A. Dünənimiz, sabahımız // – Bakı: Mədəni-maarif, – 1992. №3-4, – s.26-27; Bayramov, A. Heydər Əliyev və muzeylərimiz / A.Bayramov. – Bakı: Şur, – 1998. 90 s.; Bayramov, A. Tariximiz...yaddaşımız // – Bakı: Mədəni-maarif, – 2001. №5-6, – s. 41-45.

zeylərin pedaqoji sistem kimi başa düşülməsi S.Əmirxanov,[9] T.Əsədova[10] və başqaları tərəfindən əsaslandırılmışdır.

Tarixi-vətənpərvərlik tərbiyəsi hər bir cəmiyyətin mənəvi həyatının əsas tərkib hissələrindən biri kimi qədim zamanlardan tarix, fəlsəfə, psixologiya, pedaqogika və digər elmlər sahəsində mütəxəssislərin diqqətini cəlb etmişdir. Bu baxımdan M.Rzayev,[11] L.Qasımova,[12] S.Qasımova,[13] T.Haqverdiyev,[14] M.Ağayevin[15] tədqiqatları mövzunun tədqiqi üçün əhəmiyyət kəsb edir.

Tarixi yaddaşın, tarixi şüurun və vətəndaş tərbiyəsinin formalaş-

---

[9] Əmirxanov, S. Nəzəri muzeyşünaslıq. Qarşılıqlı əlaqələr, qanunauyğunluqlar, texnologiyalar / S.Əmirxanov. – Bakı: Mars-Print, – 2009. – 212 s; Əmirxanov, S.A. Azərbaycanda muzeyşünaslığın aktual problemləri / S.Əmirxanov. – Bakı: 2011, – 570 s; Əmirxanov, S.A. Tətbiqi muzeyşünaslıq və onun əsas istiqamətləri // «Tətbiqi kulturologiya», Dərslik. – Bakı: Mars–Print, – 2004. – s. 213-239; Əmirxanov, S.A. Yuxarı sinif şagirdlərinin estetik tərbiyəsinin formalaşmasına incəsənət muzeylərindən istifadənin təsiri Pedaqoji elmlər namizədi dis. avtoreferatı. / – Bakı, 1997, – 27 s.; Əmirxanov, S. Muzey fəaliyyətində qarşılıqlı əlaqələr (tədris–metodik vəsait) / S.Əmirxanov. – Bakı: N.Tusi adına ADPU-nin mətbəəsi, – 2000. – 38 s.; Əmirxanov, S. Muzey və məktəbli dünyagörüşü / S.Əmirxanov. – Bakı: 2001. – 160 s; Əmirxanov, S. Müasir muzey fəaliyyəti və pedaqoji proses // Bakı: Memarlıq və incəsənət xəbərləri, – 1999. № 1, – s. 32-36.

[10] Əsədova, T. Muzey məktəblərlə sıx əlaqə saxlayır // Azərbaycan müəllimi. – 1964, 2 fevral. – s. 6.

[11] Rzayev, M. Şəxsiyyətin sosial-fəlsəfi təhlilinin metodoloji əsasları / M.Rzayev. – Bakı: 2007. – 187 s.

[12] Qasımova, L. Ümumtəhsil məktəbləri şagirdlərinin milli mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi (V–IX siniflərin «Ədəbiyyat» «Azərbaycan tarixi» fənləri üzrə): /pedaqoji elmlər doktoru dissertasiyanın avtoreferatı / – Bakı, 2006. – 49 s.

[13] Qasımova, S. Kiçik yaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsində tarix və mədəniyyət abidələrindən istifadə: /pedaqoji elmlər namizədi dissertasiyanın avtoreferatı/ – Bakı, 1999. – 26 s.

[14] Haqverdiyev, T. Muzeylər milli yaddaş saxlancımızdır // – Bakı: Mədəni-maarif, – 1992. № 1, – s. 12-16.

[15] Ağayev, M.N. Humanitar fənlərin tədrisi prosesində məktəblilərin vətənpərvərlik tərbiyəsi / M.N.Ağayev. – Bakı: Müəllim, – 2004. – 234 s.

ması problemləri ilə bağlı E.İ.Almazova,[16] A.Bayramov[17] və A.T.Əhmədovanın[18] əsərləri də xüsusi əhəmiyyətə malikdir.

Müxtəlif yaş qruplarının tarixi-vətənpərvərlik və mənəvi-estetik tərbiyəsinə yönəlmiş muzey müəssisələrinin təcrübəsinin təkmilləşdirilməsi istiqamətində O.Həsənli,[19] Ə.Həsənov,[20] N.İ.Hüseynov,[21] və Z.Kərimovanın[22] tədqiqat işləri təqdirəlayiq əsərlərdəndir.

Dissertasiya işində muzey işinin tarixi ilə bağlı A.T.Baxşıyeva[23], B.Kərimov[24], N.Rəhimov[25], M.Əliyev[26], F.A.Cəfərov və X.A.Hüsey-

---

[16] Almazova, E.İ. Mədəni-kütləvi tədbirlər yeniyetmələrin asudə vaxtının səmərəli təşkilində vasitə kimi: / pedaqoji elmlər namizədi dissertasiyasının avtoreferatı / – Bakı, 1997. – 28 s.

[17]Bayramova, A. Azərbaycan Bayramov, A. İncəsənətimiz muzeylərdə // – Bakı: Mədəni– maarif, – 2004. №2–3, – s. 54-57; Bayramov, A. Yaşayan ömür // – Bakı: Mədəni– maarif, – 1997. №1–2, – s. 52-53; Bayramov, A. Muzey sərvətlərinin ekspozisiyada mühafizəsi // – Bakı: Mədəni– maarif, – 1986. №4, – s. 31-33.

[18] Əhmədova, A.T. Azərbaycan muzeylərində ekspozisiya təşkil edilməsinin estetik prinsipləri: / sənətşünaslıq namizədi dissertasiyası / – Bakı, 2002, – 265 s.

[19]Həsənli, O. Şagird şəxsiyyətinin formalaşmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: / pedaqoji elmlər doktoru dissertasiyanın avtoreferatı / – Naxçıvan, 2005, – 41 s.

[20] Həsənov, Ə. Azərbaycan Respublıkasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsaslari / Ə.Həsənov. – Bakı: “Zərdabi MMC”, 2016. – 345 s.

[21] Hüseynov, İ.H. Azərbaycan milli adət və ənənələrinin bədii–estetik mahiyyəti: / kulturologiya elmlər doktoru dissertasiyanın avtoreferatı / – Bakı, 2004, – 51 s.

[22]Kərimova, Z. Diyarşünaslıq materialları vasitəsilə məktəblilərin vətənpərvərlik ruhunda tərbiyəsi: / pedaqoji elmlər namizədi dissertasiyasının avtoreferatı / – Bakı, 2004, – 30 s.

[23]Бахшиева, А. Из истории музейного дела в Азербайджане / – Баку: Елм, 2005. – 152 с.

[24] Kərimov, B. Azərbaycanda tarix–diyarşünaslıq muzeylərinin təşəkkülü və inkişafı tarixi // B.Kərimov. – Bakı: Ziya– Nurlan, 2008. – 182 s; Kərimov B. Kərimov, B. Müstəqillik şəraitində tarix–diyarşünaslıq muzeyləri işinin təşkili haqqında // – Bakı: Azərbaycan Tarixi Muzeyi–2003, – s. 106-111.

[25] Rəhimov, N. Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyi (məlumat-bələdçi) / N.Rəhimov. – Naxçıvan: Əcəmi, 2002. – 55 s.; Rəhimov, N. Naxçıvanda muzey işinin tarixindən // http://tarixmuzeyi.nmr.az/ index.php/medias/meqaleler/36-naxc-vanda-muzey-isinin-tarixind-n; Rəhimov, N.

novun[27] əsərlərinə də müraciət edilmişdir.

Müasir mərhələdə bəzi müəlliflər milli muzey quruculuğu və muzeyşünaslığın inkişafı ilə bağlı olan əsər və elmi-metodiki məqalələrində irəli sürdükləri mülahizələrdə muzey quruculuğu, sərgi-ekspozisiya fəaliyyəti, əşya-nümunələrinin seçilməsi, toplanması, mühafizəsi, tədqiqi, bərpası, təbliği ilə əlaqədar muzeyşünaslığın nəzəri və praktik inkişafına əhəmiyyətli təsir göstərmişlər. Bu baxımdan H.Ə.Sadıqzadə[28], F.A.Rüstəmov[29] və M.Məmmədovun[30] tədqiqatlarında muzeyşünaslıq kulturoloji aspektdən tədqiq edilmişdir.

Göründüyü kimi, tədqiqat işlərində bu və ya digər dərəcədə tədqiq olunan mövzuya toxunulsa da problem tam şəkildə əks olunmamışdır. "Məktəblilərin milli şüurunun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin yeri və rolu" mövzusunda yazılan tədqiqat əsərində bu problemlər Azərbaycan tarixşünaslığında ilk dəfə kompleks şəkildə araşdırılmışdır.

Dissertasiya işində problemlə bağlı Azərbaycan Respublikası Dövlət Arxivində, Dövlət Ədəbiyyat və İncəsənət Arxivində, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi arxivində, Respublika Muzey işi üzrə Elmi Metodiki mərkəzin arxivində saxlanılan materiallardan, diyarşünaslıq muzeyləri ilə bağlı dövri mətbuatda işıq üzü

---

Mirbağır Mirheydərzadə Naxçıvanda ilk dövlət muzeyinin qurucularından olub // https://ikisahil.az/post/55409-news-55409

[26] Əliyev, M. Naxçıvanda muzey quruculuğunun sürətli inkişafı // Naxçivan Dövlət Universiteti. Elmi əsərlər, 2016, № 5(79) – s. 24-27

[27] Cəfərov, F.A, Hüseynov, X.A. Naxçıvan Muxtar Respublikasında mədəni quruculuğun inkişaf tarixindən (1920-1945-ci illər) / F.A.Cəfərov, X.A.Hüseynov. – Naxçıvan: "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, – 2021. – 312 s.

[28] Sadıqzadə, H.Ə. Muzeylər vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması,işlənməsi və təbliği problemləri: / kulturologiya elmlər namizədi dissertasiya / –Bakı, 2008. – 157 s.

[29] Rüstəmov, F.A Məktəblilərin vətənpərvərlik tərbiyəsi / F.A.Rüstəmov. – Bakı: ADPU, 1999. – 310 s.

[30] Məmmədov, M. Orta ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsində təsviri incəsənət üzrə sinifdənxaric işlərin əhəmiyyəti və yeri: / pedaqoji elmlər namizədi dissertasiyanın avtoreferatı / – Bakı, 1992, – 21 s.

görmüş sənədlərdən geniş istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti tarix-diyarşünaslıq muzeyləri və onların məktəblilərin milli şüurunun formalaşmasına təsiri məsələləridir. Tədqiqat işinin əsas predmetini çoxsaylı tarix-diyarşünaslıq muzeylərinin fəaliyyəti təhlil edilmişdir. Azərbaycan tarixşünaslığında milli şüurun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin inkişaf yoluna nəzər salınmış, önəmli xüsusiyyətləri araşdırılmışdır. Tədqiqat zamanı mövzu ilə bağlı bir sıra elmi materiallardan, anket-sorğulardan, muzeylərin illik hesabatlarından istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Məktəblilərdə milli şüurun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin təcrübəsini öyrənmək, bu profilli muzeyləri ideoloji müəssisə, mədəni-maarif, tədris məbədi kimi araşdırmaq əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Biz qarşıya qoyduğumuz məqsədin xarakterindən çıxış edərək aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd göstərmişik:

- Milli şüur anlayışı və onun əsas mahiyyətini araşdırmaq, muzeylərin spesifik xüsussiyyətlərini təlim-tərbiyə mərkəzi kimi təhlil etmək;
- Tarix-diyarşünaslıq muzeylərinin məktəblilərin milli şüurunun formalaşması, milli mədəni quruculuq və vətənpərvəlik tərbiyəsindəki rolunu müəyyənləşdirmək;
- Məktəblilərin milli şüurunun formalaşmasında muzey dərslərinin və ekspozisiyaların təsir imkanlarını araşdırmaq və onların milli ruhda tərbiyə olunması və maarifləndirilməsi üsullarını tədqiq etmək;
- Keçmişin təcrübələrini əsas götürərək, müasir tarix-diyarşünaslıq muzey işini daha da fəallaşdırmaq yollarını müəyyənləşdirmək;
- Muzeylərin ideoloji mədəni-maarif müəssisəsi kimi təsir imkanlarını araşdırmaq;
- Anket, sorğu vərəqləri vasitəsilə muzey və məktəblər arasında iş prinsipini qiymətləndirmək;
- Tarix-diyarşünaslıq muzeylərinin ideya-tərbiyə işlərinin digər profilli muzeylər, mədəniyyət müəssisələri, tədris mərkəzləri ilə əlaqələndirilməsini tədqiq etmək;

- Muzeyin tərbiyə işinin güc və istiqamətinin onun fəaliyyətinin digər növləri ilə vəhdətinə nail olmaq;

- Ayrı-ayrı tamaşaçı qruplarına fərqli yanaşmaq və hər bir tədbiri lazımi səviyyədə təşkil etmək;

- Muzeyin təlim prosesinin səmərəliliyini ardıcıl yoxlamaq və elmi-kütləvi prosesi buna uyğunlaşdırmaq;

- Ölkənin və bölgənin sosial-iqtisadi və mədəni həyatında baş verən hadisələri araşdırmaq.

**Tədqiqat metodları**. Dissertasiya işinin əsasını məktəblilərin milli şüurunun formalaşmasında muzeylərin roluna münasibət, həmçinin ayrı-ayrı problemlər üzrə qarşılıqlı nəzəri təhlil təşkil edir. Araşdırma zamanı elmi analiz, nəzəri təhlil, müşahidə, esse, müsahibə-anket sorğuları və eksperiment-tədqiqat metodunun formalaşdırıcı eksperiment-dən (tədqiqat prosesində şagirdlərin öyrədilməsi, onlarda milli şüur keyfiyyətlərinin inkişaf etdirilməsi) istifadə edilmişdir.

Nəzəri təhlil. Problemlə bağlı elmi-metodik vəsaitlər, bir sıra alimlərin əsərlərinin əsas ideyaları təhlil edilmiş, ümumiləşdirmələr aparılmış, müəyyən nəticələr çıxarılmış, tədqiqatlara istinad olunmuşdur.

Müşahidə. Tarix-diyarşünaslıq və digər muzeylərin hesabatlarında muzeydaxili və muzeydənkənar tədbirlərin mahiyyətində milli şüura təsir effekti müşahidə edilmişdir.

Müsahibə-anket sorğuları. Muzeylərin fəaliyyətinə istinadən məktəblilərin milli şüurunun inkişafında muzeylərin rolunu daha yaxından öyrənmək üçün əldə olunan fakt və materiallara əsasən müvafiq proqnozlar əldə etmək məqsədilə muzey işçiləri, müxtəlif yaş qruplarına mənsub insanlar və məktəblilərlə şifahi və yazılı sorğular aparılmışdır.

Eksperiment. Tədqiqat prosesində irəli sürdüyümüz nəzəriyyəni sınaqdan keçirmək üçün bir sıra tarix-diyarşünaslıq muzeylərində və məktəblərdə eksperiment, sınaq təcrübələri təşkil olunmuş, problemin həlli istiqamətində təklif olunan iş faktorlarının, metod və yollarının effektivliyi, təsir imkanları aşkara çıxarılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim edilən dissertasiya işinin əsas müddəaları:

1. Muzeylərimiz məktəblərlə birgə işləməli, milli mənlik şüurunun formalaşması məqsədilə fəal iş aparılmalı və bu iş daim təkmilləşməlidir.

2. Şagirdlərin vətəndaşlıq, vətənpərvərlik və əxlaq tərbiyəsi probleminin kompleks həlli üçün müəllif tərəfindən hazırlanmış sosial sifarişi yerinə yetirən muzey təhsilinin təmin edilməsi, tədris prosesinin təşkilinin müxtəlif formalarında muzey pedaqoqu, müəllim və şagirdlərin qarşılıqlı əlaqəsi həyata keçirilməlidir.

3. Tarixi yaddaşın formalaşması sistemində muzeyin özünəməxsusluğu onun tarixi prosesi və sosial münasibətləri sosial-psixoloji məcmusu şəklində əks etdirən keçmiş haqqında ümumi təsəvvürlərin qorunub saxlanmasında, bərpasında, ötürülməsində iştirakından nəzəri, ideoloji, bədii, normativ-qiymətləndirmə və digər mənəvi hadisələrin istehsalından ibarətdir.

4. Muzey sərgisi tarixi yaddaşla muzeyin qarşılıqlı əlaqəsinin nəticəsi olmaqla keçmişlə gələcək, müxtəlif adət-ənənələr, mədəniyyətlər, sosial qruplar arasında obyektiv mənalı və yenidən qurulmuş əlaqə kimi qəbul edilə bilər.

5. Tarix və tarix-diyarşünaslıq muzeyləri xalqımızın ənənəvi mədəni irsinin gələcək nəsillərə çatdırılmasında yorulmadan çalışır və onlar tarixi yaddaşın formalaşması prosesində böyük potensiala malikdir

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işi məktəblilərdə milli şüurun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin rolunu əks etdirən ilk elmi-metodoloji araşdırmadır.

Tədqiqat işinin elmi yeniliyi sistem halında aşağıdakı kimi göstərilmişdir:

- Ədəbiyyat və mənbələrin kompleks təhlili əsasında milli şüurun şagirdlərə tarix-diyarşünaslıq muzeyləri vasistəsilə aşılanması istiqamətləri öyrənilmişdir.
- Ayrı-ayrı tarix-diyarşünaslıq muzeylərinin iş təcrübəsi elmi cəhətdən ümumiləşdirilmişdir.

- Tarix-diyarşünaslıq profilli muzey hərəkatı Azərbaycan maarifçiliyinin milli-mədəni inkişaf konsepsiyaları ilə əlaqələndirilmişdir.

- Muzeylərdəki tarixi materiallar nümayiş etdirilməklə, onların şagirdlərin milli şüurunun formalaşmasına təsiri ilk dəfə işıqlandırılmış, milli xüsusiyyətlər açıqlanmışdır.

- Məktəblilərin milli şüurunun formalaşmasında muzeylərdə keçirilən dərslərin və ekspozisiyaların təsir imkanları araşdırılmış, keçirilən tədbirlərin yeni nəslin milli ruhda tərbiyə olunması məsələləri işıqlandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın əsas müddəalarından və elmi nəticələrindən istifadə edilə bilər:

- Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Turizm Universitetinin tələbələrinə "Məktəblilərdə milli şüurun formalaşmasında tarix-diyarşünaslıq muzeylərinin rolu" mövzusunda dərslərin keçirilməsi və ixtisas kurslarının aparılmasında;

- Gənc muzeyşünaslar üçün nəzərdə tutulan dərnək və ixtisas artırma kurslarında;

- Məktəblilərdə milli şüur formalaşması mövzusunda elmi seminar və konfransların keçirilməsində;

- İdeoloji məsələləri ilə məşğul olan müxtəlif dövlət qurumları, şirkət və birliklərin gündəlik fəaliyyətində.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları müəllifin məqalə və tezislərində müxtəlif elmi məcmuələrdə, nüfuzlu elmi jurnallarda çap olunmuş, beynəlxalq və respublika elmi konfranslarının materiallarında elmi dövriyyəyə tətbiq edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işinin mövzusu Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Şurası tərəfindən təsdiq olunmuş və dissertasiya həmin müəssisənin "Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmiş və şöbənin 05 aprel 2024-ci il tarixli (protokol №1) iclaslarında müzakirə olunaraq müdafiəyə təqdim edilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya

Komissiyasının fəlsəfə doktoru “Dissertasiyaların tərtibi qaydaları”na uyğun şəkildə hazırlanmış, giriş, 3 fəsil, 6 yarımfəsil və nəticə hissəsindən ibarətdir. Giriş - 20.983 işarədən, **I fəsil** 104.748 işarədən, **II fəsil** 82.367 işarədən, **III fəsil** 54.732 işarədən, **nəticə** hissəsi 7.710 işarədən ibarət olmaqla cəmi 270.540 işarə sayı təşkil edir və 153 səhifədən ibarətdir.

# DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində tədqiq olunan mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, mövzunun öyrənilmə dərəcəsi araşdırılmış, mənbə bazası təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh edilmişdir.

Dissertasiyanın **“Məktəblilərdə milli şüurunun formalaşması işinin məqsəd və vəzifələri”** adlı birinci fəsil iki paraqrafdan ibarətdir. “**Milli şüur anlayışı və onun əsas məqsədi”** adlı birinci paraqrafda tarix-diyarşünaslıq muzeylərinin milli şüur anlayışının formalaşmasındakı rolu öz əksini tapmışdır. Bu gün müstəqil ölkədə baş verən sosial-mədəni inkişaf fonunda milli şüur məsələsinin bir problem kimi öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Cəmiyyətimizin indiki inkişaf mərhələsində vətənpərvərlik hissinin formalaşması gələcək sosial tərəqqinin şərtlərindən biri kimi çıxış edir. Bu baxımdan cəmiyyət qarşısında baş verənləri müstəqil qiymətləndirmək və öz fəaliyyətini ətrafındakı insanların maraqlarına uyğun qurmaq bacarığı olan vətəndaş hazırlamaq vəzifəsi durur. Bu problemin həlli uşağın şəxsiyyətinin sabit vətəndaş xüsusiyyətlərinin formalaşması ilə bağlıdır. Uşaqların vətənpərvərlik tərbiyəsi problemi daim cəmiyyətin diqqət mərkəzindədir.

Bu baxımdan, insanın bir şəxsiyyət kimi formalaşmasında mənlik şüurunun inkişafı xüsusi rol oynayır. Mənlik şüurunun formalaşması insana özü haqqında təsəvvürlərini, özünün zahiri görkəmini, əqli, mənəvi, iradi keyfiyyətlərini qiymətləndirmək imkanı verir. Mənlik şüuru insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesindən ibarətdir.

Lakin hər halda bu anlayışlar bir-birini tamamlayan anlayışlardır. Bu əslində “milli şüur” fenomeninin daha aşkar dərk olunmasına xidmət edir və onların funksiyalarına aşağıdakıları daxıl etmək olar:

Soykökünə bağlılıq ən yüksək mənəvi dəyərdir. Ona görə ki, soykökü milli kökdür, mənəvi kökdür. Xalqın milli mənliyi həm də onun

soykökünə necə bağlılığı ilə ölçülür. Respublikamızda gənclər gününə həsr olunmuş idman bayramında söylədiyi nitqində Ulu öndərimiz demişdir: *"Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz həmişə ən yüksək mənəviyyatı əks etdiriblər. Biz çalışmalıyıq ki, bu mənəvi dəyərlərə daim sadiq olaq. Hər bir gənc öz kökünə sadiq olmalıdır. Bizim öz kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik".*[31] Bu baxımdan, milli şüur uzun bir tarixi inkişaf prosesinin məhsuludur. Belə ki, milli şüurun inkişafında bütün ictimai-siyasi hadisələr – sosial sarsıntılar, milli mübarizə motivləri öz təsirini göstərir. Bunun ən bariz nümunəsi kimi erməni qəsbkarlarının torpaqlarımızı işğal etməsi nəticəsində xalqımızın milli-mənəvi dəyərlərinə vurulan ziyanları göstərmək olar. Milli mənliyin əsasını hər bir fərdin mənsub olduğu millət və ya xalqın onu əhatə edən sosial həyatın bütün sahələrinə bəslədiyi subyektiv əqidəsi təşkil edir.

**"Tarix-diyarşünaslıq muzey quruculuğu-tarixi varislik"** adlı ikinci paraqrafda Milli şüurun formalaşmasında xüsusi rola malik olan muzeylərin təşəkkül və inkişafı tarixi şərh edilmişdir. İnsan yarandığı gündən öz keçmişini dərk etməyə, onu layiqincə qiymətləndirməyə çalışıb. Keçmişimizə işıq tutmaqda, özümüzə və başqalarına, torpağımıza, ayrı-ayrı şəxsiyyətlərə, tariximizdə baş vermiş sosial-siyasi hadisələrə münasibətimizin formalaşmasında muzeylərin rolu əvəzsizdir. Cansız əşyalar şüşə ilə örtülmüş vitrinlərdə yaddaşa çevriləndə, ötən tariximizi, mədəniyyətimizi, taleyimizi, ağrılı-acılı və şanlı günlərimizi əks etdirəndə dünənimizi görür, gələcəyimizə inamla baxırıq. Məhz buna görə də tariximizin müəyyən mərhələlərini və ayrı-ayrı səhifələrini özündə yaşadan "cansız əşyalar" qayğı ilə toplanılmalı, qorunmalı, öyrənilməli və öyrədilməlidir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan tarixi irs nümunələrinin zənginliyi, maddi və mənəvi mədəniyyət nümunələrinin əhali kütləsi arasında geniş maraq oyatması, onların xaricə daşınmasının qarşısının alınmasının vacibliyi kimi amillər

[31] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, 1997. – s. 156-157.

nəticəsində ölkədə muzeylər yaradılmağa başladı. 1896-cı ildə Naxçıvanın Nehrəm kənd məktəbində maarifpərvər yazıçımız Cəlil Məmmədquluzadə tərəfindən yaradılan ilk muzeyin eksponatları az olsa da, o dövr üçün çox sevindirici bir hadisə idi.[32] Artıq Azərbaycanda mədəni-maarifçilik hərəkatının surətli inkişafı məqsədyönlü şəkil alırdı ki, bu proses özünü Bakı, Şamaxı və Naxçıvan şəhərlərində tanınmış insanların topladıqları qədim və tarixi əhəmiyyətli əşya, material və eksponatların vaxtaşırı nümayişində göstərirdi. Tədrisə yardım məqsədilə digər bir muzey – "Pedaqoji muzey"də Bakı şəhəri Xalq Məktəbləri müdiriyyəti nəzdində yaradılmışdı. Bu muzeyin eksponatları dərslik, dərs vəsaiti, tədris-metodik vəsaitlərdən ibarət olmaqla əyani vəsait kimi nümayiş etdirilirdi. Muzey 1920-ci ildə Azərbaycan Dövlət Muzeyinin yaradılması ilə əlaqədar bağlanmışdır.[33]

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimyyəti qurulduqdan sonra İstiqlal muzeyi ləğv edilsə də yeni muzeylərin təşkilində mühüm rol oynadı. Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan 20 gün sonra, yəni 1920-ci il mayın 18-də inqilab komitəsinin sədri N.Nərimanov tərəfindən imzalanan "Bütün muzeylər milliləşdirilsin" adlı qərara görə yeni dövlət muzeyi yaradılmalı idi.[34]

Həm 1937-ci ildə Azərbaycanda represiyaların geniş vüsət alması, həm də II Dünya müharibəsinin başlanması muzey işinə ikitərəfli "zərbə" idi. Bu "zərbə" diyarşünaslıq muzeylərində özünü daha qabarıq göstərirdi. Əgər 1937-ci ildə Azərbaycanda 18 muzey – o cümlədən, 1 inqilab tarixi, 2 tarix, 7 diyarşünaslıq, 2 incəsənət və 6 digər profilli muzeylər fəaliyyət göstərirdisə, 1940-cı ildə isə 22 muzey – o cümlədən, 1 inqilab tarixi, 3 tarix, 4 diyarşünaslıq, 4 incəsənət, 10 digər profilli muzeylər var idi. Göründüyü kimi, diyarşünaslıq mu-

---

[32] Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə / İ.Həbibbəyli. – Bakı: Şərq-Qərb, 1994. – s.14.

[33] Kərimov, B. Azərbaycanda tarix–diyarşünaslıq muzeylərinin təşəkkülü və inkişafı tarixi // B.Kərimov. – Bakı: Ziya-Nurlan, 2008. – s. 16.

[34] Kərimov, B. Azərbaycanda tarix–diyarşünaslıq muzeylərinin təşəkkülü və inkişafı tarixi // B.Kərimov. – Bakı: Ziya-Nurlan, 2008. – s. 26.

zeylərinin sayı 7-dən 4-ə enmişdi.[35]

Məlum olduğu kimi, 1969-cu ildə Ulu Öndər Azərbaycan KP MK-nın Birinci Katibi seçildikdən sonra, hakimiyyətə ilk dəfə gəlişi dövrünün başlanğıc illəri və sürətli inkişaf strategiyasının təyini dövrü idi. Onun hakimiyyəti dövründə respublikamız sürətli inkişafına görə hər il keçici Qızıl Bayrağa sahib olmuşdur. Bütün sahələrdəki dinamik inkişaf muzeyşünaslıqda da özünü göstərmiş və artıq 1974-cü ildən başlayaraq muzeylərimiz sürətlə inkişafa başlamışdır. Bu danılmaz faktdır ki, əgər 1969-cu ildə Azərbaycanda 38 muzey fəaliyyətdə olmuşsa, 1988-ci ildə artıq onların sayı 120-yə çatmışdır. Digər keçmiş respublikalarla müqayisədə Azərbaycan bu sahədə də irəlidə olmuşdur. 1975-ci ildən 1983-cü ilə qədərki dövr ərzində isə muzeylərin sayı 40-dan 90-a çatmışdır. Bu dövr Azərbaycan muzeyşünaslığının tərəqqi dövrüdür. Mövcud faktlara əsasən 1983-cü ildən 1988-ci ilə qədərki dövrdə Ulu Öndərimiz SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsində Moskvada fəaliyyət göstərərkən digər sahələrlə yanaşı, muzeylərin, muzeyşünaslığın inkişaf tempini də həmişə nəzarətdə saxlamış, 5 il ərzində 30 muzey yaradılmış, yüksək səviyyədə fəaliyyətini davam etdirmişdir. Bu sürətli, dinamik inkişaf strategiyası nəticəsində muzeylərimiz öz fəaliyyətlərini davam etdirmiş, 1991-ci ilə qədər bu şəbəkənin sayı artaraq 128-ə çatmışdır. Müstəqillik illərində də mövcud olan bu tarix-diyarşünaslıq muzeyləri regionun turizm potensialının tələbatına uyğun olaraq təmir edilmiş və müasir texnologiyalar ilə təchiz edilmişdir.

“**Tarix-diyarşünaslıq muzeylərinin milli ruhda tərbiyəetmə və maarifləndirmə imkanları və vəzifələri”** adlanan II fəsil 2 paraqrafdan ibarətdir. Birinci paraqrafda **“Məktəblilərin milli şüurda tərbiyə edilməsində muzey ekspozisiyasının təsir imkanları”**. araşdırılmışdır. Milli mənəvi dəyərlərimizin daşıyıcısı olan muzeylər dövlətin ideoloji müəssisəsi olmaqla yetişməkdə olan gənc nəslin milli şüurunun formalaşmasında böyük təsir gücünə malikdir. Cəmiyyətin

[35]Əmirxanov, S.A. Azərbaycanda muzeyşünaslığın aktual problemləri / S.Əmirxanov. – Bakı: 2011. – s. 89.

sosial institutları olan muzeylər sosial-mədəni proseslər vasitəsilə insanların nəsillərini, onların mənəviyyatını, fəzilətlərini, vətənpərvərliyini “birləşdirir”. Muzeyin əsas təsir vasitəsi, xalqımızın minillik tarixinin şahidi olan ekspazisiyada nümayiş olunan eksponatlar məktəblilərin milli şüurunun formalaşmasında xüsusi rol oynayır. Muzey əşyaları informativlik, attraktivlik və ekspressivlik xüsusiyyətlərinə malik olmaqla, müvafiq təsir gücünə malikdir. Muzeylər mədəni irsin və sosial yaddaşın qoruyucusu kimi məhz eksponatlar vasistəsilə cəmiyyətlə birbaşa təmasda olurlar. Bu prizmadan çıxış edən muzey işçiləri milli şüurun formalaşması mövqeyindən çıxış edərək məktəblilərə zəngin tarixi keçmişimizi təbliğ etməklə onları tərbiyələndirir.

Hazırda muzeylər tədricən xarici aləmə açıq olan və cəmiyyətin həyatında fəal iştirak edən sosial-mədəni qurumlara çevrilir. Burada əsas təbliğatçı olan muzey işçisi bütün adət və ənənələrinə sadiq vətənpərvər şəxsiyyətin yetişdirilməsi üçün mövcud ekspozisiyaya uyğun yüksək səviyyəli elmi təqdimatı ilə məktəblilərdə milli şüuru formalaşdıra bilər.

**“Məktəblilərin milli şüurunun formalaşmasında muzeydə keçirilən interaktiv təlimin təsir imkanları”** adlı ikinci paraqrafda məktəblilərin milli şüurunun formalaşmasında muzey klubları, dərnəkləri, muzey mühazirələri, dərsləri, olimpiadalarin təsir imkanları şərh edilmişdir. Muzey əməkdaşı, milli şüurun inkişafına təkan verən muzey klubları və dərnəklərinin fəaliyyət istiqamətlərindən istifadə edərək qarşıya qoyulan məqsədə nail ola bilər.

Aparılmış araşdırmalar göstərir ki, yarandığı ilk gündən başlayaraq regionlarda fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyləri gənc nəslin vətənə məhəbbət, xalqına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və həyati əhəmiyyətli məsələ kimi təbliğ edilmişdir. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizəsində onun inam hissini gücləndirir. Vətənpərvərlik

qəhrəmanlığın əsasını qoyan amildir. Xalqımız şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişdir.

Məktəblilər və digər yaş qrupuna mənsub insanlar üçün təşkil edilən muzey dərslərinin maariflənmə təsiri daha böyükdür. Ekspozisiyada, muzey otaqlarında, fondun müvafiq yerində maarifləndirmə baxımından muzey dərslərinin məqsədyönlü təşkili vacibdir. Belə ki, məktəblilərlə təşkil edilən muzey dərslərində bədii silsilə fənlərinin yaddaşda daha da yaxşı qalması üçün əyanilik prinsipindən istfadə etmək məqsədəyönlüdür. Bu prinsip əsasında eksponat və yaxud materialdan, əşyadan istifadə etməklə, nəzəri məlumatların, faktların elmi ardıcıllıqla çatdırılması vacibdir. Yaxşı olardı ki, tədris proqramlarına müvafiq olaraq muzey dərslərində mövzular planlaşdırılsın, tədrisetmə ardıcıllığı nəzərə alınsın.

Dərsin səmərə və keyfiyyətli aparılması üçün digər tədbirlərin, vasitələrin qarşılıqlı əlaqəli şəkildə tənzimlənməsi mühümdür. Eyni zamanda muzey dərslərini təcrübəli, peşəkar muzey işçisi keçməlidir. Bu baxımdan muzey işçisi həm pedaqoq-maarifçi, həm də tədqiqatçı olmalıdır. Çünki, eksponat önündə, ekspozisiyada, muzey otağında məktəblilərə dəqiq məlumat verilməli, maraq doğuran tarixi faktlara istinad olunmalıdır.

Məktəblilərdə milli şüurun formalaşdırması məqsədilə muzeylər müxtəlif dərnəklər vasitəsi ilə olimpiadalar, görüşlər (görüş-müsahibə, görüş-konsert, görüş-söhbət, görüş-viktorina, görüş-müsabiqə), disputlar, muzey dərsləri, mühazirələr və tematik gecələr, konfranslar, dəyirmi masalar, söhbətlər, viktorinalar və s. keçirməklə ideoloji müəssisə kimi əsas əsas diqqət mərkəzinə çevrilir.

Maariflənmədə əhəmiyyət kəsb edən muzey dərnəklərinə muzeyə dəvət edilən pedaqoqlar tərəfindən rəhbərlik edilir. Həm muzey işçiləri, həm də müxtəlif yaş qruplu tamaşaçı kütləsi üçün təşkil edilən bu dərnəklər profillərinə görə müxtəlif istiqamətli olur. Təbii ki, dərnəklərin məqsədi müxtəlif yaş qruplu və ixtisaslı insanlarda maraqları artırmaq, dəyərləndirmək, cavablandırmaqdan ibarətdir. Bu dərnəklərdə tarix, təsviri sənət, ədəbiyyat, musiqi, dekorativ-tətbiqi sənətkarlıq, bədii texniki, muzeyşünaslıq və digər sahələr üzrə biliklər

verilir.

Müasir Azərbaycanın mənəvi həyatının vacib bir hissəsi olan vətənpərvərlik tarixi keçmişlə əlaqələndirilir, öz köklərini anlamağa imkan verməklə yanaşı, həm də onun inkişaf istiqamətini proqnozlaşdırır. Vətənpərvərlik tərbiyəsi sistemi vətəndaşlar arasında fəal mövqenin məqsədyönlü formalaşdırılmasını təmin etmək, onların ümummilli problemlərin həllinə tam cəlb olunmasına kömək etmək, dövlətçilik təfəkkürünün və milli maraqlara uyğun fəaliyyət vərdişinin inkişafına şərait yaratmaq məqsədi daşıyır.

Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqilliyin dördüncü onilliyinə qədəm basmış Azərbaycana məhz milli şüura malik, vətənpərvər gənclər lazımdır. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Ümummilli lider müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişməsini dəfələrlə qürur hissi ilə vurğulayıb: *"Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var".*[36]

**"Məktəblilərin milli şüurunun formalaşmasında muzey sərgiləri və tədbirlərinin rolu"** adlı III fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqrafda **"Muzey sərgilərinin şagirdlərin milli şüurunun formalaşmasına təsiri"** məsələləri şərh edilmişdir. Bu gün müasir dünyada texnologiyanın inkişafı muzeylərin, muzey sərgilərinin, şagird, tələbə şəxsiyyətini formalaşdıran sərgi salonlarının rolunu nəinki azaltmır, əksinə artırır. Sərgilər vasistəsilə şagird və tələbə şəxsiyyəti məsələsinin öyrənilməsi mühüm rol oynayır, çünki təhsil alan gənclər öz regionlarının və ölkələrinin inkişafı üçün zəruri olan

---

[36] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Dekabr, 1994 - iyun, 1995. Üçüncü kitab / H.Ə.Əliyev; –Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov. – Bakı: Azərnəşr, 1997. – s. 345.

böyük mədəni və innovativ potensiala malikdirlər.[37] Sərgi fəaliyyətinin aparılmasının müasir konsepsiyaları muzey və tamaşaçı arasında fəal qarşılıqlı əlaqəni, interaktiv tədbirlər vasistəsilə dialoqa yönəlmiş "canlı" muzeyin yaradılmasını nəzərdə tutur. Çoxsaylı multimedia texnologiyalarından istifadə etməklə auditoriya ilə təmasların genişləndirilməsi şəxsiyyətin inkişafında muzey məkanının artan əhəmiyyətindən danışmağa imkan verir.

Hər bir məktəblidə milli mənlik şüurunun formalaşdırılması onun cəmiyyətdə, ictimai münasibətlərin bütün sistemində tutduğu və oynadığı rolu müəyyənləşdirir, mənəvi keyfiyyətlərinin qabarıq ifadəsinə çevirir. Məktəbli dərindən-dərinə dərk edir ki, əzəmətli ağaclar öz kökləri üzərində dayandığı kimi hər bir şəxs də öz xalqı, öz millətі içərisində təşəkkül tapır.

Muzey işçisi böyüməkdə olan gənc nəslə tarixi şüurun formalaşdırılması üçün mövcud sərgi materialları vasitəsi ilə ata-babalarımızın keçdiyi tarixi yolu xatırladır və onun yaddaşını möhkəmləndirir. Təcrübə göstərir ki, muzey sərgi muhazirələrinin məzmununu şagirdlər üçün daha aydın və maraqlı etməklə, onların milli şüurunu formalaşdırır, öz doğma diyarını yaxından tanıması və onun nailiyyətləri ilə fəxr etməsinə səbəb olur. Bu da şagirdləri öz vətəninə hədsiz məhəbbət və sədaqət ruhunda tərbiyə etmək üçün imkanlar yaradır. Beləliklə, tamaşaçının daxili aləminə muzey bələdçisi tərəfindən edilən təsir nə qədər güclü olarsa, nəticə bir o qədər səmərəli olar və əksinə.

İkinci paraqrafda **"Vətən müharibəsinə dair keçirilən sərgi və tədbirlərin şagirdlərin milli şüurda tərbiyə olunmasında rolu"** məsələləri tədqiqata cəlb edilmişdir. Xalqımız tarixən öz igid qəhrəmanları, düşmənə göz dağı verən, sinəsini yağı gülləsinə sipər edən, canını vətənə qurban verən övladları ilə də şöhrət tapıb. Biz Azərbaycan oğullarının qəhrəmanlığı barədə tarixin hər çağından soraq alırıq. Sevindirici haldır ki, o qəhrəmanlıq ənənələri bu gün də

---

[37] Bayramoğlu A. Milli mənlik şüurumuz Abbas Səhhətin gözü ilə // – Bakı: Bakı Universitetin Xəbərləri. Humanitar elmlər seriyası, 2008. № 3, – s. 215-221.

yaşamaqdıdır, bu müqəddəs yolun on minlərlə yolçusu var. 4 günlük Aprel, Tovuz döyüşlərində, 44 günlük Vətən müharibəsində, 24 saatlıq lokal antiterror tədbirlərində biz qəhrəman oğullarımızın yaratdığı qəhrəmanlıq epopeyasını yenidən gördük. Vətən torpağı uğrunda canını fəda edən şəhidlərimiz barədə muzeylərimiz məktəblilərin iştirakı ilə silsilə tədbirlər keçirirlər. Qəhrəmanlarımızın ömür və döyüş yolunun təbliğinə, tanıdılmasına, yaddaşlarda yaşadılmasına yönəlik işlərdir. Bütün bunlar qəhrəmanlıq irsimizin yaşadılmasına, gələcək nəsillərə ötürülməsinə imkan yaradır. Şəhidlərlə bağlı anım tədbirlərinin keçirilməsi, şagirdlərin, incəsənət xadimlərinin qatqısı ilə kecələrin düzənlənməsi də muzeylərin iş planına daxildir.

Qarabağ müharibəsi veteranları ilə gənclərimizin görüşlərinin təşkil olunması, müharibədə fədakarlıq göstərən igidlərimizlə aparılan söhbətlər gənclərin vətənpərvərlik tərbiyəsində xüsusi əhəmiyyət daşıyır. Bütün bunlar vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rol oynayır. Keyfiyyətli zənginləşmədə təsviri incəsənətin bədii-yaradıcı əhəmiyyəti mühümdür.

Bu barədə Ümummilli lider Heydər Əliyev deyirdi: *"Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən anlatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, vətəndaşlıq hissini, Azərbaycançılıq hissini yüksəldərik".*[38]

Bütün bunlar unikal muzey əşyalarında daha böyük, tipik obyektlərdə isə daha az müstəqil dəyərə malik olması ilə bağlıdır. Unikal obyektin sərgilənməsi onun sərgi kontekstindən asılı olmayaraq mövcud olan semantik və estetik potensialının ən parlaq tərəflərini üzə çıxarmalıdır, tipik obyektə gəldikdə isə, o, yalnız sərgi mətninə daxil edildikdə müəyyən məna qazanır.

Dissertasiyanın **"Nəticə"** hissəsində dissertasiyanın gedişində

---

[38] Əliyev H. Mədəniyyət, mənəvi dəyərlər, mənəvi tərbiyə – Bakı: Müəllim nəşriyyatı, 2008. – s. 114.

əldə olunan əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilmişdir. Müasir dövrdə məktəblilərin və gənc nəslin milli şüurunun formalaşmasında aparıcı rol oynayan tarix-diyarşünaslıq muzeylərinin iş formalarını təhlil etdikcə aşağıdakı nəticəyə gəlmək olar: 1. Diyarşünaslıq muzeyləri ölkəmizdə gedən maarifləndirmə işinin daha səmərəli aparılmasında ciddi rol oynayır. 2. Elmi ədəbiyyatın, problemlə əlaqədar mövcud iş təcrübəsinin təhlili göstərdi ki, muzeylər bir institut kimi toplama, tədqiqetmə, qoruma, bərpaetmə, nümayişetdirmə proseslərinin obyekti olmaqla elmi, tarixi, mədəni və bədii yaradıcılıq informasiyalarını əldə edir, sistemləşdirir və gələcək nəsillərə ötürür. 3. Azərbaycan muzeyşünaslığının formalaşması mənbələri hesab olunan müxtəlif tarixi dövrlər milli mədəniyyətimizi, incəsənətimizi, yaradıcılıq və sənətkarlığımızı əhatə edən əşya və eksponatlar çox zəngin informasiya daşıyıcısı olmaqla bərabər həm də elmi-yaradıcı, bədii-estetik təsir gücünə malikdirlər. Bütün bu amillər muzeylərin yaranmasında mühüm əhəmiyyət kəsb etmişlər. 4. Kompleks təsir gücünə malik sərgi-ekspozisiyaların muzeyşünaslıqda mühüm amil kimi əhəmiyyəti böyükdür və mühit-şərait, əşya-eksponat, muzey işçisi və digər vasitələrin gücündən istifadə edilərək aparılan elmi-tədqiqatlar həm elmi sistem yaradır, həm sahəni inkişaf etdirir, həm də eksponatla bağlı zəngin, məzmunlu elmi informasiya yaradır. 5. Apardığımız tədqiqat göstərir ki, bu proseslərin daha da təkmilləşməsi üçün bir sıra başlıca tələblərə əməl edilməlidir: - Muzeylərin elmi-tədqiqat müəssisələri kimi səmərəli fəaliyyətləri üçün ilin əvvəlindən elmi-tədqiqat işi üzrə tərtib və təsdiq edilmiş plana əsasən fəaliyyət mexanizminə əməl edilməli, muzey rəhbərləri tərəfindən qarşılıqlı əlaqəli tədqiqatlara xüsusi diqqət yetirilməlidir.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**

1. Muzey işinin təşkili prosesi və onun milli şüurun formalaşmasında rolu // – Bakı: Tarix və onun problemləri, – 2018. №2, – s. 230-233.

2. Muzey fəaliyyətinin sosiallaşmasında məktəblilərə ayrılan rol // –Bakı: Tarix və onun problemləri, – 2018. №3, – s. 107-109.

3. Muzey ekspozisiyasının şagirdlərdə milli şüurun formalaşmasında rolu // – Bakı: Tarix və onun problemləri, – 2019. №2, – s. 280-285.

4. Музеи как образовательные и воспитательные учреждения // Гілея: науковий вісник. – Київ: «Видавництво «Гілея», – 2019. Вип. 141(1). Ч. 1. Історичні науки. – с. 113-117.

5. Tarix-diyarşünaslıq muzeylərinin tərbiyəedici və təhsilləndirici imkanları və vəzifələri // – Bakı: AMEA Tarix İnistitutu. Elmi əsərlər, – 2019, cild 78, – s. 232-240.

6. Milli Azərbaycan Tarixi Muzeyinin "Muzey pedaqogikası" ənənələri // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti. ADPU-100. Tarix, İnsan və Cəmiyyət. Elmi-nəzəri və elmi- metodik jurnal, – 2021, №3 (33), – s. 127-140.

7. Azerbaycanın 44 günlük Vatan Muharebesi: Öğrencilerin Gözüyle Bir Vatan Savaşı // Akademik Tarih ve Düşünce Dergisi, 2024, №11(4), – s. 2779-2792.

8. Muzeyin auditoriya ilə ünsiyyəti: mədəni-təhsil məsələlərinə yeni yanaşma üsulu // Azərbaycanın ilk peşəkar arxeoloq və muzeyşünası Davud bəy Şərifovun anadan olmasının 130 illiyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" V Respublika elmi konfransının materialları, – Bakı: – 7 aprel, 2015, – s. 285-289.

9. Vətənpərvərlik milli şüurun əsası kimi vətənpərvərlik anlayışının müəyyən edilməsi // Görkəmli tarixçi alim S.Aşurbəylinin anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" adlı VI Respublika elmi konfransının materialları, – 14 iyun, 2016, – s. 280-285.

10. Muzey və tariximiz istedadlı balacaların gözü ilə // Muzey, arxiv və kitabxanalarda mühafizə edilən nilli dəyərlərin tədqiqi, təbligi, qorunması və bərpası mövzusunda I Respublika elmi konfransının materialları, – Bakı, – 20 iyun, 2017, – s. 162-167.

11. “Sərgi və ekspozisiyaların muzeyşünaslıqda yeri və rolu” // “İstiqlal” muzeyinin 100 illiyinə həsr olunmuş “Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası” III Respublika elmi konfransının materialları, – Bakı, – 18 iyun 2019, – s. 180-186.

12. Успехи виртуальных проектов национального музея истории Азербайджана в период пандемии // Замонавий дунёда музейшуносликнинг долзарб масалалари. Халқаро илмий-амалий анжуман тўплами, – Тошкент, – 2021. – с. 429-436.

13. Tarix yazan şahid uşaqlar // Davamlı inkişaf strategiyası: Qlobal trendlər, milli təcrübələr və yeni hədəflər I Beynəlxalq elmi konfransın materialları, – Mingəçevir, – 10-11 dekabr 2021, – I cild, – s. 525-527.

14. Azərbaycanın ilk qadın bioloq-akademiki Validə xanım Tutayuq (Nizami Gəncəvi adına Gəncə Tarix-Diyarşünaslıq Muzeyi və Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) // AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnistitutu, “Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı” Beynəlxalq elmi konfransın materialları, – 6-7 mart 2023, – Bakı, – 2023, – s. 126.

Dissertasiyanın müdafiəsi 14 fevral 2025-ci il tarixdə saat $15^{45}$-də AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.12.2024
Kağızın formatı: 60/84, 16/1
Həcm: 44.540
Tiraj: 100